**CAHANGİR QƏHRƏMANOV**

# BİBLİOQRAFİYA

**BAKI - 2007**

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**MƏHƏMMƏD FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU**

# CAHANGİR QƏHRƏMANOV

**(1927 – 1995)**

***BİBLİOQRAFİYA***

**BAKI – NURLAN – 2007**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**Azərbaycan MEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu elmi şurasının 17 yanvar 2007-ci il tarixli 1 №-li iclasının qərarı ilə nəşr edilir.**

**Tərtibçi:** **Lora ƏLİYEVA**

**Yenidən işləyən:** **Aydın XƏLİLOV,**
*tarix elmləri namizədi*

**Redaktoru:** **Məmməd ADİLOV,**
*filologiya elmləri doktoru*

**Kompüter icraçısı:** **Nuranə SALMANOVA**

**Korrektoru:** **Suad ƏHMƏDOV**

**Cahangir Qəhrəmanov (1927-1995). Biblioqrafiya. Bakı: Nurlan, 2007, 80 s. + fotolar (Təkrar nəşri).**

*Birinci nəşri:*
*Bakı: Örnək, 1998, 67 s. + fotolar.*



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## TƏRTIBÇIDƏN

Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun sabiq direktoru, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor **Cahangir Vahid oğlu Qəhrəmanovun** əsərlərinin biblioqrafiyası 1950-2006-cı illərdə Azərbaycan, rus və xarici dillərdə çap olunmuş monoqrafiyalarını, məcmuə, elmi və dövri mətbuat məqalələrini, redaktə etdiyi əsərləri, dissertasiyalara elmi rəhbərliyini və opponentliyini əks etdirən bölmələri əhatə edir.

Biblioqrafiyada alimin həyatının əsas tarixləri göstərilmiş, elmi və ictimai fəaliyyəti haqqında qısa oçerk verilmiş, əsərləri və özü haqqında nəşr olunan yazılar, eləcə də Azərbaycan xalqının yazılı abidələrini geniş təbliğ edən müsahibələri təsvir edılmışdir.

Materiallar xronoloji qaydada və çap olunduğu dildə verilir.

Biblioqrafiyanı tərtib edərkən alimin Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmalar Instıtutunun elmi arxivindəki şəxsi fondundan istifadə edilmişdir.

Kitabın sonunda alimin əsərlərinin, müştərək müəlliflərin və onun haqqında yazmış müəlliflərin əlifba göstəricisi verilmişdir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## HƏYATI VƏ ELMI-ICTIMAI FƏALIYYƏTININ ƏSAS TARIXLƏRI

Cahangir Vahid oğlu Qəhrəmanov 1927-ci il fevralın 10-da Azərbaycanın Qutqaşen (indiki Qəbələ) şəhərində anadan olmuşdur.

1945-ci il – Bakı şəhəri 132 N-li orta məktəbi bitirmişdir.

1945-1950-ci illər – ADU (indiki BDU)-nun şərqşünaslıq fakultəsində təhsil almışdır.

1951-1955-ci illər – M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin aspirantı olmuşdur.

1955-ci il – "Azərbaycan ədəbi dilində fəlsəfə terminləri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

1957- ci il – Xüsusi turist qrupunun tərkibində Finlandiyada səfərdə olmuşdur.

1955-1960-cı illər – M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunda baş müəllim, dosent

1960-1967-ci illər – Azərbaycan Elmlər Akademiyası Respublika Əlyazmalar Fondunun baş elmi işçisi

1962-1963-cü illər – Daşkənddə, Moskvada və Bakıda mətnşünas və kataloqşünasların Ümumittifaq müşavirələrində məruzələrlə çıxış etmişdir.

1967-1972-ci illər – Respublika Əlyazmalar Fondunun abidələrin tədqiqi



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

və nəşri şöbəsinin müdiri

1969-cu il – "İmadəddin Nəsimi əsərlərinin tənqidi mətni və leksikası" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

1970-ci il – SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə "Fədakar əməyə görə" yubiley medalı ilə təltif edilmişdir.

1971-1972-ci illər – Azərbaycan Elmlər Akademiyası Respublika Əlyazmalar Fondunun direktor müavini

1972-ci il – Moskvada Arxivşünasların VII Beynəlxalq konqresində məruzə oxumuşdur.

– İtaliyada, Vatikan Apostol Kitabxanasında elmi ezamiyyətdə olmuşdur.

1972-1995-ci illər – Azərbaycan Elmlər Akademiyası Respublika Əlyazmalar Fondunun (1986-cı ildən Əlyazmalar İnstitutunun) direktoru

1974-cü il – Ali Attestasiya Komissiyası tərəfindən professor elmi adı verilmişdir.

– İmadəddin Nəsiminin əsərlərinin tənqidi mətnini hazırladığına görə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin bürünc medalını almışdır.

1975-1995-ci illər – Azərbaycan Elmlər Akademiyası Şərqşünaslıq, Dilçilik, Ədəbiyyat institutlarında filologiya elmləri namizədi və doktoru alimlik dərəcələri verən ixtisaslaşdırılmış müdafiə şuralarının üzvü; Əlyazmalar İnstitutunda mətnşünaslıq ixtisası üzrə müdafiə şurasının sədri, ilahiyyət elmləri namizədi alimlık dərəcəsi verən müdafiə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

şurasının üzvü; sabiq SSRİ Elmlər Akademiyasının “Памятники письменности Востока” seriyasından nəşrlərinin, “Советская тюркология” jurnalı, “Ədəbiyyat və incəsənət” qəzeti, “Архивы Азербайджана” jurnalı və Azərbaycan Elmlər Akademiyası İctimai Elmlər üzrə Elmi İnformasiya Mərkəzinin referativ xarici ədəbiyyat məcmuəsi filologiya və incəsənət seriyasının redaksiya heyətlərinin üzvü; Azərbaycan Elmlər Akademiyası Əlyazmalar İnstitutu kataloqlarının,“Əlyazmalar xəzinəsində” elmi əsərlər toplusunun və “Keçmişimizdən gələn səslər” bülleteninin baş redaktoru

1977-ci il – Bakıda keçirilən “Şərq xalqlarının arxeoloji abidələrinin elmi təsviri prinsipləri” mövzusunda Ümumittifaq elmi müşavirəsində məruzə etmişdir.

1978-ci il – İsveçdə, Upsala Universitetində elmi ezamiyyətdə olmuşdur.

– Amerika Birləşmiş Ştatlarında elmi ezamiyyətdə olarkən Miçiqan ştatı Detroyt şəhərinin bələdiyyə idarəsinin Fəxri Fərmanı ilə təltif olunmuşdur.

1979-cu il – Nizami Komissiyasının katibi

1980-cı il – Gəncə şəhərində “Nizami günləri”ndə iştirak etmişdir.

1981-ci il – Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilmişdir.

1982-ci il – Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə Azərbaycanın Əməkdar elm xadimi adı verilmişdir.

– “Şərəf nişanı” ordeni ilə təltif edilmişdir.

1983-cü il – Bakıda keçirilən “Şərq xalqlarının arxeoloji abidələrinin



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

elmi təsviri prinsipləri” mövzusunda II Ümumittifaq elmi müşavirəsində məruzə etmişdir.

1985-ci il – Fransada, Parisdə YUNESKO-nun binasında keçirilən Azərbaycan əlyazmaları sərgisində iştirak etmişdir.

1987-ci il – Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə “Əmək veteranı” medalı ilə təltif edilmişdir.

1987-1995-ci illər – Azərbaycan Elmlər Akademiyası Əlyazmalar İnstitutunun təşkil etdiyi beş müxtəlif elmi-nəzəri konfransının təşkilat qrupunun sədri və iştirakçısı

1990-cı il – Azərbaycan əlifbası komitəsinin üzvü

– İranda,Təbriz və Qum şəhərlərində Firdovsinin 1000 illiyi münasibəti ilə keçirilən konqreslərdə iştirak etmişdir.

– Türkiyədə, Kayseri şəhərində Xoca Əhməd Yəsəvinin 900 illik yubiley tədbirlərində məruzə ilə çıxış etmişdir.

1991-ci il – Moskvada və Sankt-Peterburqda Nizaminin 850 illiyinə həsr olunmuş tədbirlərdə iştirak etmişdir.

1993-cü il – Türkiyənin Erciyəz Universitetində Azərbaycan Demokratik Respublikasının 75 illiyi münasibəti ilə keçirilən millətlərarası simpoziumda iştirak etmişdir.

1994-cü il – Türkiyənin “Vəqf” Elmi Araşdırmalar Mərkəzinin dəvəti ilə “İslam və təbabət” və “İslam mədəniyyəti abidələri” mövzularında iki konfransda məruzələrlə çıxış etmişdır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

1995-ci il iyunun 29-da Bakı şəhərində vəfat etmişdir.

## CAHANGIR VAHID OĞLU QƏHRƏMANOV

Azərbaycan mətnşünaslıq elminin yeni dövrdə inkişaf etdirilməsində, klassiklərin və adı-sorağı tarixin orta çağlarında dolaşıb qalmış, əsrin ideologiya sınağından keçə bılməmiş bir sıra tarixi-mədəni şəxsiyyətlərin yazılı irsinin müasir nəsillərə çatdırılmasında mühüm xidmətləri olmuş görkəmli alimlərimizdən biri də Azərbaycanın Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Cahangir Vahid oğlu Qəhrəmanovdur.

Azərbaycanın ilk hüquqşünas professorunun ziyalı ailəsində dünyaya göz açmış Cahangir Qəhrəmanov hələ uşaqlıq və yeniyetməlik dövründə ana vətənin hər qarışını gəzmış, öz xalqının həyat tərzi ilə yaxından tanış olmuş, öz elinə və xalqına vurğun olmuş və bu məftunluq onun dünya görüşlərinin milli zəmində formalaşmasında, gələcəyinin müəyyənləşməsində mühüm rol oynamışdır.

Təsadüfı deyil ki, çox-çox sonralar Azərbaycan xalqının milli oyanışı başlananda professor C.V.Qəhrəmanov milli ruhun dirçəlişində rəhbərlik etdiyi Əlyazmalar İnstitutunun da özünəməxsus rol oynadığından ağızdolusu, iftixarla danışmağı sevərdi.

Ali təhsilini başa vurandan sonra, 1951-ci ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin aspiranturasına daxil olan gənc Cahangir Qəhrəmanov hələ “Azərbaycan ədəbi dilində fəlsəfə terminləri” mövzusunda namizədlik dissertasiyası üzərində işləyərkən yazılı irsimizə, dil tariximizə böyük maraq göstərmiş, Azərbaycan dilinin fəlsəfə terminlərinin təşəkkül tarixinin orta əsrlərdən süzülüb gəldiyini açıqlamış, tədqiqatını tarixi-linqvistik aspektdə aparmışdır. Bu elə illər idi ki, purizmin fəaliyyətinin səngiməsi ilə dilimizdəki ərəb və fars terminləri qatından imtina edilmişdi, yaranan boşluq isə rus dilindən alınmalarla doldurulmaqla, ruslaşdırma siyasəti daha incəliklə, əlaltdan yeridilməkdə idi. Azərbaycanlı müəlliflər tərəfindən yüzillər ərzində fəlsəfəyə aid saysız-hesabsız traktatların yazılması, fəlsəfə terminlərinin orta əsrlər poeziyasına yol tapması isə bu elmin dilinin milli və milliləşmiş özüllərlə qurulmasına imkan verirdi. Bundan istifadə etmək, öz milli, yaxud çoxdan milliləşmiş leksik vahidlərimizi müasir dilimizin terminoloji sisteminə gətirib, onlardan bu sistemin şüurlu və daha mükəmməl qurulmasında



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

istifadə etmək vacib məsələ idi. Gənc tədqiqatçı öz fəaliyyətinin ilk addımından belə bir vəzifəni öz üzərinə götürdü və Azərbaycan dili terminoloji sisteminin konkret bir qatının ənənəvi-tarixi inkişaf xəttindən sapmaması üçün əlindən gələni etdi, fəlsəfə terminologiyasının standartlaşmasının elmi-nəzəri prinsiplərini müvəffəqiyyətlə əsaslandıra bildi.

Xalqımızın tarixinə, elm və mədəniyyət sərvətinə, əlyazmalar irsinə böyük maraq Cahangir Qəhrəmanovu tezliklə o vaxtlar Azərbaycan EA Respublika Əlyazmalar Fondu adlanan xəzinəyə gətirib çıxartdı. Sonralar Cahangir müəllim dəfələrlə etiraf edib deyirdi: "Ali məktəbdə müəllimlik illəri mənim üçün çox çətin keçirdi. Hiss edirdim ki, bura mənim yerim deyil, mən potensial imkanlarımı burada aça bilməyəcəyəm. Mənim maraq dairəm qədim mənbələr, tarixi–filoloji məsələlər idi. Bütün fikrim-zikrim Əlyazmalar Fonduna keçmək, buradakı abidələri araşdırmaq idi". 1960-cı ildə bu arzu və istək axır ki, həyata keçir və Cahangir Qəhrəmanov Respublika Əlyazmalar Fondunda işləməyə başlayır. Sonrakı fəaliyyəti də göstərdi ki, gənc alim səhv etməmişdi, bu müəssisənin də Cahangir Qəhrəmanov kimi elm və tədqiqatçılıq alovu ilə alışıb-yanan fədailərə ehtiyacı vardı.

Bir-birinin ardınca bir neçə kitab təlif və tərtib edib nəşr etdirəndən, bir əlyazmaçı kimi imzası tanınandan sonra Cahangir Qəhrəmanov bütün qüvvə və enerjisini böyük Azərbaycan şairi və mütəfəkkiri Seyid İmadəddin Nəsimi irsinin tədqiqinə həsr edir. Ümumiyyətlə, sovet hakimiyyəti illərində xalqın klassik irsinə partiyanın və hökumətin qayğısı haqqında çox mədhiyyələr yazılmışdır. Ancaq elə həmin sovet hakimiyyətinin gəlişi illərində minlərlə əlyazmalarımıza od vurulması, əlyazma şəklində əsrimizə gəlib çıxmış tarixi-mədəni irsimizin tarmar edilməsi üzərindən həmişə sükutla keçilirdi. Bolşevizmin həmin "xidmətlərinin" ağrısını-acısını cəmiyyətdə daha çox əlyazmaşünaslar çəkmiş, itirilmiş irsin həqiqi dəyərini onlar daha çox bilmişlər. 20-ci illərdən bəri Salman Mümtaz, Yusif Vəzir, Əmin Abid, Ə.Dəmirçizadə, H Araslı, K.Məmmədov, Ə.Mirəhmədov, T.Məhərrəmov və bir sıra başqa alimlər klassiklərimizin əsərlərinin elmi-tənqidi mətninin tərtibi sahəsində olduqca səmərəli praktik işlər görmüş, mətnşünaslığın nəzəri problemlərinin həlli üçün zəngin baza yaratmışdılar. Buna baxmayaraq, 60-cı illərin sonuna qədər Azərbaycanda klassik ədəbiyyatın nəşri işi əsasən bir əlyazma nüsxəsi materialına söykənirdi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ümumiyyətlə götürdükdə, elm aləmində mövcud olan fikrə görə, bir-iki nüsxə əsasında nəşr olunan kitablar orta əsr müəllifinin orijinal yaradıcılığı haqqında tam və mötəbər təsəvvür yaratmır. Çünki kitab nəşrinin mövcud olmadığı yüzillərdə katiblər tərəfindən dəfələrlə üzü köçürülmüş əlyazma nüsxələrində meydana çıxan müxtəlif səpkili interpolyasiyalar əslində müəllifin öz variantının təhrif edilməsinin, xələfləri tərəfindən müəllif sözünə çox vaxt dərin məhəbbət təzahürü kimi müdaxilələrin ortaya çıxmasının məhsulu olurdu.

Bir nüsxə əsasında buraxılan kitabda, təbii ki, bu cür təhriflər və yanlışlıqlar da çox olurdu.

Məsələ bundadır ki, heç də hər hansı müəllifin əsərlərinin elmi-tənqidi mətnini hazırlamaq mümkün deyildir, çünki onların əlyazma irsinin böyük bir hissəsi "şanlı muzdurkomlar" tərəfindən vaxtilə məhv edilmiş, yandırılmışdır. İndi hansısa yeni bir orta əsr şairimizi "kəşf etmək" böyük xoşbəxtlik sayılır.

Belə bir şəraitdə Cahangir Qəhrəmanov Nəsimi poeziyasının böyüklüyünü əks etdirən Bakı, İrəvan, Leninqrad, Daşkənd kitab xəzinələrində mühafizə edilən mükəmməl əlyazma nüsxələri, əski çap kitabları və bir neçə başqa mənbə əsasında dahi Nəsimi əsərlərinin elmi-tənqidi mətnini orijinalın öz əlifbasında tərtib edib, fundamental bir üçcildlik nəşr etdirdi. Cahangir Qəhrəmanovun nəşrinə qədər Nəsimi əsərləri 1844-cü, 1871-ci və 1880-ci illərdə İstambulda üç dəfə, 1926-cı ildə isə Bakıda Salman Mümtaz tərəfindən ərəb əlifbası ilə çap edilmişdi. Lakin bunlar yeganə əlyazma divan nüsxəsi əsasında nəşr olunduqlarından böyük şairin Azərbaycan dilində yaratdığı ədəbi-bədii irsi bütövlükdə əhatə olunmamış, Nəsiminin dünyagörüşlərini və hürufiliyinin fəlsəfi əsaslarını əks etdirən iri həcmli bir sıra qəsidələri, müstəzadları, bir çox qəzəl və rübailəri həmin nəşrlərə düşməmişdi. Burada müxtəlif mahiyyətli təhrif və nöqsanlar da özünə geniş yer tutmuşdu.

Cahangir Qəhrəmanov Nəsimi irsi üzərində işləyərkən, bir tərəfdən, mətnşünas və ədəbiyyatşünas kimi çıxış etmişsə də, əsas etibarilə abidələrin linqvistik, qrafik və orfoqrafik xüsusiyyətlərinə daha geniş diqqət yetirmiş, beləliklə, azərbaycanşünaslıq elmində linqvistik mətnşünaslığın əsasını qoymuşdur. Sonralar Cahangir müəllim bu istiqamətdə işləyən kadr hazırlığına da ciddi fikir vermiş, çoxlu sayda linqvistik mətnşünas



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

aspirant və dissertantlara rəhbərlik etmiş, beləliklə, bu sahənin milli elmimizdə bərqərar olmasına nail olmuşdur. Məhz Nəsimi əsərlərinin Cahangir Qəhrəmanov nəşrindən sonra Azərbaycan mətnşünaslığında abidələrin dil və imla xüsusiyyətlərinin ön plana çəkilməsi elmi prinsip kimi etiraf olundu və öz praktik həllini tapmış oldu.

Mətnşünaslıqda linqvistik məsələlərin əsas götürülməsinin başlıca üstünlüyü bundadır ki, belə metodla tərtib edilən elmi-tənqidi mətnlərin dil xüsusiyyətləri cilalanmış olur və bu cür kanonik mətnlər milli dil tarixinin tədqiqi üçün də çox mötəbər faktlar verir.

Cahangir Qəhrəmanov Nəsiminin əlyazmaları üzərində işləyərkən hər nüsxədəki şeirləri, hər şeirin bəndlərini, misralarını və ayrı-ayrı sözlərini bircə-bircə tutuşdurmuş, özündən əvvəlki nəşrlərdə təzahür edən xeyli nöqsan və təhrifləri aşkar etmiş və aradan qaldırmışdır. Nəticədə şairin 167 yeni, qeyri-mətbu əsəri aşkar edilib mətnə salınmış, müxtəlif şeirlərinin əvvəlki nəşrlərə düşməyən 132 beyti bərpa edilmiş, 129 mübahisəli şeir müəyyənləşdirilmişdir. Beləliklə, tənqidi mətnin tərtibi nəticəsində Nəsiminin 2176 beytlik yeni əsərləri meydana çıxmışdır.[1]

Alimin belə dərin tədqiqatı və gərgin əməyi sayəsində Seyid İmadəddin Nəsimi özünün 600 illik yubileyi günlərində öz xələflərinin qarşısında daha zəngin, daha nəhəng şair və mütəfəkkir kimi ucalmışdır. Tanınmış dilçi alimlərimizdən biri vaxtilə düz deyirdi ki, Cahangir müəllim Nəsimini nəşr etdirənə qədər Azərbaycan öz dahi şairini bu qədər yaxşı və ətraflı tanımırdı.

Nəsimi kimi bir nəhəngin kamil tədqiqatçısı olmaq artıq onun yaradıcılığı haqqında müvəffəqiyyətlə doktorluq dissertasiyası müdafiə etmiş Cahangir Qəhrəmanovun adını bütün respublikada, dünya nəsimişünaslığında şöhrətləndirdi. Bundan sonra alim Nəsimi irsinin daha geniş kütlələr arasında populyarlaşmasına girişdi, bir-birinin ardınca Nəsimi və onun poetik irsi haqqında məqalələr yazıb nəşr etdirdi, Nəsimi şeirlərindən seçmələri kiril əlifbasına transfoneliterasiya edib, irili-xırdalı kitablar halında çap etdirdi.

Ümumiyyətlə, Nəsimi irsi ilə məşğul olduğu illər Cahangir Qəhrəmanovun yaradıcılığının ən məhsuldar dövrü sayıla bilər. Məhz həmin çağlarda gərgin və məhsuldar elmi fəaliyyətinə görə Cahangir müəllim "Fədakar əməyə görə" medalı və

---

[1] Bax: İmadəddin Nəsimi. Əsərləri. Birinci cild. Bakı: Elm, 1973, s.5-84.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin bürünc medalı ilə təltif edildi, işlədiyi Respublika Əlyazmalar Fondunun direktoru vəzifəsinə irəli çəkildi.

Azərbaycan və digər İslam Şərqi xalqlarının on minlərlə yazılı abidələrinin toplanıb mühafizə edildiyi bir akademik müəssisəyə rəhbərlik etmək, bir tə-rəfdən, böyük şöhrət olsa da, ikinci tərəfdən, məsuliyyət tələb edirdi. Bunu başa düşən doktor Cahangir Qəhrəmanov özünün direktorluq fəaliyyətinin lap əvvəlindən elmi-təşkilatçılıq işinə ciddi diqqət yetirməyə başlayır. Əlyazmalar Fondunun daha səmərəli və çevik işləməsi üçün müəssisədə həmin illərin tələbinə müvafiq struktur dəyişiklikləri aparır, kadr potensialının zənginləşməsinə, fondun yüksək ixtisaslı əlyazmaşünaslarla təmin olunmasına və kolleksiyasının böyüməsinə fikir verir, elmi- tədqiqat işlərinin yeni səviyyəyə qaldırılması üçün bütün bacarığını sərf edir.

Keçmiş SSRİ-nin əlyazma mərkəzlərini gəzib, onların iş üsulunu və struktur xüsusiyyətlərini öyrənən Cahangir Qəhrəmanov zəmanənin tələblərinə cavab verən bütün müsbət cəhətləri öyrənir və Respublika Əlyazmalar Fondunun müasirləşdiril-məsinə tətbiq edir. Həmin illərdə Əlyazmalar Fondunun ayrıca binası yox idi, azsaylı kollektiv fondun materiallari ilə birlikdə Akademiya Rəyasət Heyəti binasının birinci mər-təbəsində yerləşirdi. Cahangir Qəhrəmanovun Əlyazmalar Fondu ilə bağlı coşub-daşan ideyalarının və planlarının gerçəkləşməsi üçün daha yaxşı şərait tələb olunurdu. Gəzdiyi yerlərdə əlyazmaların qorunması şəraiti ilə yaxından tanış olmuş Cahangir Qəhrəmanov tezliklə Bakının qayalıq yerlərindən birində fonda yeni bina tikilməsi ideyasını irəli sürür. Bunun üçün plan lahiyəsi hazırlanır, yer müəyyənləşdirilir, ancaq texniki səbəblərdən layihəni həyata keçirmək mümkün olmur (təəssüf ki, bu aktual məsələ indiyə qədər də öz həllini tapmamışdır). Həmin illərdə Azərbaycan KP MK Respublika Əlyazmalar Fondu-nun fəaliyyətinin daha da yaxşılaşdırılması haqqında mühüm bir qərar qəbul edəndən sonra hazırkı İstiqlaliyyət küçəsi, 8 ünvanında yerləşən gözəl tarixi bina əlyazmalar xəzi-nəsinin qorunması üçün ayrılır. Respublikanın başçısı H.Ə.Əliyev yoldaşın xalqımızın minillik tarixi-yazılı abidələrinə necə böyük qayğı göstərdiyini görən professor C.V.Qəhrəmanov bundan ruhlanaraq, 80-ci illərdə Əlyazmalar Fondunun daha yüksək nailiyyətlər əldə etməsi üçün bütün enerjisini və bacarığını sərf etməyə başlayır. Səmərəli elmi və elmi-təşkilatçılıq fəaliyyətinə görə 1981-ci ildə Azərbaycan Respub-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

likası Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı, 1982-ci ildə "Şərəf nişanı" ordeni ilə təltif edilir və həmin il ona Respublikanın Əməkdar elm xadimi fəxri adı verilir.

80-ci illərin ortalarında artıq Cahangir Qəhrəmanovun başçılıq etdiyi Respublika Əlyazmalar Fondunun elmi kadr potensialı yüksək səviyyəyə çatmışdı. Fondun kolleksiyası dünyada ən zəngin xəzinələrdən biri hesab edilir, respublikanın yüksək səviyyəli qonaqları sərgi zallarını gəzərək Azərbaycan xalqının bu milli-mənəvi sərvəti haqqında ən xoş sözlər söyləyirdilər, burada hazırlanıb çap edilən kitablar respublikanın elmi ictimaiyyəti arasında səmimi ehtiramla qarşılanırdı. Mərhum alim Aydın Məmmədov fondun buraxdığı nəşrlər haqqında yazırdı: "Bu gün Azərbaycan filologiyası məsələləri", "Keçmişimizdən gələn səslər" və "Əlyazmaları xəzinəsində" toplularının... ümumxalq rəğbəti qazanması, mütəxəssislərin və geniş oxucu auditoriyasının ciddi marağına səbəb olması da, hər şeydən əvvəl, onların həqiqətçiliyinə, sarsılmaz vətəndaşlıq mövqeyinə və elmi tutarlılığına olan inam və ehtiramdan irəli gəlir"[2].

Artıq elə bir dövr gəlib çatmışdı ki, "sürətləndirmə", "yeni təfəkkür" və "yenidənqurma" bayrağı altında bolşevik imperiyası dağıdılmağa başlamışdı. On illər ərzində qurulan hər şey sıradan çıxarılır, guya ki, perspektivini itirmiş müəssisələr ixtisar edilir və ya birləşdirilirdi. Belə bir vaxtda professor C.V.Qəhrəmanov ömrünün ahıl çağlarında respublikanın sayılan-seçilən ağsaqqallarından birinə çevrilmişdi. Respublikada nəzərə çarpan bütün elmi, ictimai-siyasi və mənəvi tədbirlərdə iştirak edirdi. Onun adı artıq Moskva, Leninqrad, Zaqafqaziya, Orta Asiya, Türkiyə, İran, Ərəbistan, Vatikan, İsveç, ABŞ, Fransa türkoloqları, şərqşünasları və əlyazmaçıları arasında məşhurlaşmışdı. Rəhbərlik etdiyi müəssisənin də hörməti onun adı ilə yanaşı yüksəlməkdə idi. Professor Cahangir Qəhrəmanovun özünün hazırladığı və ya onun yaxından iştirakı ilə hazırlanıb, nəşr edilmiş kataloqlar və Əlyazmalar Fondu haqqında təbliğat xarakterli kitablar, Kişvəri, Xacə Nəsirəddin Tusi, Əhmədi, Yusif Məddah, Suli Fəqih, Mustafa Zərir, Füzuli, Hüseyn əfəndi Qayıbov kimi bir sira ədib və şairlərimizin əlyazma irsini əhatə edən sanballı kitablar həm ölkədə, həm də xarici şərqşünaslıqda Cahangir Qəhrəmanovla yanaşı, onu əhatə edənlərin və Bakının əlyazmalar mərkəzinin də adını

---

[2] Aydın Məmmədov. Sözümüz eşidilənədək. Bakı: Yazıçı, 1988, s.126.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

şöhrətləndirmişdi. Ağsaqqal alim artıq neçə il idi ki, başçılıq etdiyi Əlyazmalar Fondunun akademik instituta çevrilməsi üçün sözün əsl mənasında mübarizə aparır, Moskva çinovniklərinin qarşısında bu cür yenidənqurmanın məqsədyönlü olduğunu sübut etməyə çalışırdı. Ancaq Qorbaçov yenidənqurması dövründə, irili-xırdalı müəssisələrin qapandığı bir vaxtda bu ideyanı həyata keçirmək müşkül işə çevrilmişdi: "mərkəz" hər dəfə Azərbaycan Elmlər Akademiyasının təklifini geri qaytarırdı. Nəhayət, 1986-cı ilin payızında C.V. Qəhrəmanovun da iştirak etdiyi nümayəndə heyəti Moskvada Heydər Əliyevin qəbuluna düşə bilir. Görkəmli siyasi xadimin təşkilatçılıq bacarığından, sözükeçərliyindən, Moskvada yaşasa da, öz ana vətəninin hər bir probleminə maraq göstərdiyindən, millətinə həyan olduğundan ağızdolusu danışan Cahangir Qəhrəmanov həmin görüş haqqında hər dəfə sözünü belə bir nida ilə yekunlaşdırırdı: "Kişi bizi dinləyəndən sonra götürüb zəng elədi. Ertəsi gün N. Rıjkov sərəncam imzaladı!" Beləliklə, 1986-cı il oktyabrın 26-da Azərbaycan EA Respublika Əlyazmalar Fondunun bazasında Azərbaycan EA Əlyazmalar İnstitutu yaradıldı. Cahangir Qəhrəmanovun və rəhbərlik etdiyi kollektivin uzun illər can atdığı arzu H.Ə.Əliyevin bircə zəngi ilə çin oldu.

Fondun belə çətin vaxtda instituta çevrilməsi təkcə bu müəssisə kollektivinin sevincinə səbəb olmamışdı, həm də bütövlükdə respublikada şadlıqla qarşılanmışdı. Həmin illərdə bunu ayrıca bir hadisə kimi qiymətləndirən Aydın Məmmədov yazırdı: "O xalqın taleyi xoşbəxtdir ki, onun tarixini, onun taleyini yüksək savadlı, sözün əsl mənasında vətənpərvər adamlar həll eləyirlər. Məncə, özünütəsdiqin ən böyük, kəsə yolu kitabxanalarda, arxivlərdə, əlyazmaları arasında can çürütməkdir. Məsələn, mən vətəndaşlığı C.Qəhrəmanovun rəhbərlik etdiyi Respublika Əlyazmalar Fondunu instituta çevirməsində görürəm. Bu, böyük xidmətdir"[3].

Bundan sonra Əlyazmalar İnstitutu öz fəaliyyətinin daha da məhsuldar dövrünə qədəm qoydu. İnstitutun çap məhsulları dünyanın daha çox ölkələrinə yayılmağa, doğma Azərbaycanın mədəni-tarixi irsini təbliğ etməyə başladı. İnstitutun yüksək ixtisaslı kadrlarla təmin olunmasına göstərilən qayğı buna səbəb oldu ki, artıq hər il Cahangir Qəhrəmanovun yetirdiyi dissertantlar öz işlərini müntəzəm müdafiə etməyə başladılar.

[3] Aydın Məmmədov. Sözümüz eşidilənədək. Bakı: Yazıçı, 1988, s.206.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

İnstitut əməkdaşlarının Əlican Qövsi Təbrizi, Bəvazici, Ruhi Bağdadi, Xəlili, Rəhməti Təbrizi, Əbri Xacə ibn Adili, Möhsün Nəsiri, Cənnəti, Rami Təbrizi, Mirzə İsmayıl Qasir, Həsən və başqa müəlliflərin həyatı, yaradıcılığı və yazılı irsi haqqında tədqiqatları respublika elminə yeni-yeni faktların təqdim olunmasında xüsusi rol oynadı və elmi ictimaiyyətimiz tərəfindən yüksək qiymətləndirildi. Əlyazmalar İnstitutunun adı dillər əzbəri oldu və hamı bu müəssisəyə qeyri-rəsmi söhbətlərdə "Cahangir Qəhrəmanovun institutu" deməyə başladı. Bu cür epitet qocaman alimin ürəyinə yağ kimi yayılır, Cahangir müəllim bundan ləzzət alır, mənəvi zövqlənirdi.

90-cı illərin əvvəllərindən Əlyazmalar İnstitutunun xarici ölkələrin əlyazma kitabxanaları ilə möhkəm əlaqələri yaradılmağa başladı ki, bunda da Cahangir Qəhrəmanovun nüfuzu mühüm rol oynadı. Respublikamızın əlyazmaçıları istər beynəlxalq İSESKO təşkilatının xətti ilə, istərsə də ayrı-ayrı əlyazma mərkəzlərinin təşəbbüsü ilə Türkiyədə, İranda, Suriyada, Misirdə, Mərakeşdə, İraqda, Tatarıstanda keçirilən beynəlxalq simpozium və konfranslara dəvət olundular, orada maraqlı məruzələrlə çıxış etdilər, öz həmkarlarının işi ilə tanış olmaq, təcrübə mübadiləsi aparmaq imkanı əldə etdilər. İnstitutun beynəlxalq arenaya çıxması onun əməkdaşlarının və rəhbərliyinin iş təcrübəsini artırdı, onların dünyanın daha yaxşı təmin olunmuş əlyazma xəzinələrinin vəziyyətini öyrənməsi, məziyyətlərinin Azərbaycan EA Əlyazmalar İnstitutunda tətbiq edilməsi üçün yeni ideyalarla zənginləşməsinə kömək etdi.

Professor Cahangir Qəhrəmanovun Əlyazmalar İnstitutunun gələcəyi üçün gözəl fikirləri, cəsarətli planları var idi. 1995-ci ilin birinci yarısında Respublika Prezidenti Heydər Əliyev cənablarının Əlyazmalar İnstitutuna göstərdiyi yeni qayğı, institut binasının genişləndirilməsi barədə qərarı qocaman alimdə öz ideyalarını həyata keçirmək üçün böyük ruh yüksəkliyi yaratmışdı. Təəssüf ki, "kübarlar xəstəliyi" şəkər böyük alim, gözəl və geniş ürəkli insan Cahangir Qəhrəmanova öz yeni planlarını həyata keçirməyə imkan vermədi.

Azərbaycanın Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Cahangir Vahid oğlu Qəhrəmanov bu dünyada 68 il yaşadı. Ömrünün 45 ilini elmə, elmi–tədqiqatçılıq fəaliyyətinə həsr etdi, özündən sonra xalqına bütün güc və bacarığını sərf etdiyi sanballı və zəngin bir elm ocağı, istedadlı kollektiv qoyub getdi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Cahangir Qəhrəmanovun son arzusu ölümündən bir il sonra həyata keçdi. 1996-cı ilin yubiley günlərində Respublika Prezidenti H.Ə.Əliyev cənablarının Fərmanı ilə professor C.V.Qəhrəmanovun yaratdığı Əlyazmalar İnstitutuna dahi şair və mütəfəkkir Məhəmməd Füzulinin adı verildi.

Professor Cahangir Qəhrəmanovun adı onu yaxından tanıyanların və şagirdlərinin, yaratdığı kollektiv üzvlərinin qəlbində daim yaşayır, onun irsi elmin dolanbac yolları ilə zirvələr fəth etməyə çalışan yeni-yeni nəsillərə yol göstərir.

***MƏMMƏD ADİLOV***

## ƏSƏRLƏRININ BIBLIOQRAFIYASI

### Təlif, tərtib və tərcümə etdiyi kitablar

**1955**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

1. Философския терминология в современном азербайджанском языке: Автореф. дисс. к. филол. наук. Москва, 1955, 12 с.

**1962**

2. Eyyub Abbasov. Seçilmiş əsərləri (Tərtibçi və müqəddimə müəllifi: C.V.Qəhrəmanov). Bakı: Uşaqgəncnəşr, 1962, 216 s.

**1964**

3. Əsrarnamə (Əlyazmanın faksimilesi; sözlük və izahatın müəllifi: C.V.Qəhrəmanov). Bakı: Azərb. EA nəşriyyatı, 1964, 200 s.(Red. H.Mirzəzadə).

**1969**

4. Описание археографических документов. Баку: Элм, 1969, 100 с.

5. Научно-критический текст и лексика произведений Имадеддин Насими: Автореф. дисс. д. филол. наук. Баку, 1969, 70 с.

**1970**

6. Nəsimi " Divan"ının leksikası. Bakı: Elm, 1970, 567 s. (Red. C.Əfəndiyev və Ə.Xanbabayev).

**1973**

7. İmadəddin Nəsimi. Əsərləri. Üç cilddə (Elmi-tənqidi mətnin tərtibi və müqəddimənin müəllifi: C.V.Qəhrəmanov). Bakı: Elm, 1973, 656+671+378 s.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

8. İmadəddin Nəsimi. Rübailər–rübaiyyat (Azərbaycan və fars dillərində kalliqrafik rəngli nəşr). Ərəb əlifbası ilə. Bakı: Elm, 1973, 156 s.

9. İmadəddin Nəsimi. Rübailər (Tərtibçi və redaktoru: C.V.Qəhrəmanov). Bakı: Azərnəşr, 1973, 143 s.

10. İmadəddin Nəsimi. “Məndə sığar iki cahan” (Tərtibçi və müqəddimə müəllifi). İlk söz H.Araslı (Red.Ə.Hüseyni). Bakı: Gənclik, 1973, 275 s.

**1978**

11. Sevdiyim şeirlər (XII-XX əsr Azərbaycan şairlərindən seçmələr toplusu). Tərtibçi və müqəddimə müəllifi: C.V.Qəhrəmanov Bakı:Gənclik, 1978, 248 s.

**1979**

12. Низами Гянджеви, Краткий справочник (Составитель: Дж.В.Каграманов). Баку: Элм, 1979, 91 с.

13. Nizami Gəncəvi. Qısa məlumat (Tərtibçi və ruscadan tərcümə edəni: C.V.Qəhrəmanov). Bakı: Elm, 1979, 95 s.

**1983**

14. Из сокровищницы рукописей Азербайджана (На азербайджанском, русском и ангилийском языках). Баку: Элм, 1983, 82+108 с.

**1984**

15. Z.M.Buniyadov. Azərbaycan Atabəyləri dövləti (1136-1225). Rus dilindən



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

tərcümə edəni: C.V.Qəhrəmanov. Bakı: Elm, 1984, 268s.

16. Kişvəri. Əsərləri (Tərtibçi, ön söz, şərh və lüğətin müəllifi). Bakı: Yazıçı, 1984, 163s.

17. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 20 cilddə. III cild: XIII - XVI əsrlər Azərbaycan şeiri (Cildin tərtibçisi və müqəddimə müəlliflərindən biri: C.V.Qəhrəmanov). Bakı: Elm, 1984, 543 s.

**1986**

18. Hüseyn Əfəndi Qayıbov. Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir. I cild (Çapa hazırlayanı, izah və lüğətin müəllifi: C.V.Qəhrəmanov). Bakı: Elm, 1986, 353 s.

**1987**

19. Рукописи произведений Низами Гянджеви в мировых рукописехранилищах. Баку: Элм, 1987, 84 с. (соавтор К.Аллахяров).

**1988**

20. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 20 cilddə. VI cild: XVII–XVIII əsrlər Azərbaycan ədəbiyyatı (Cildin tərtibçisi və müqəddimə müəllifi: C.V.Qəhrəmanov). Bakı: Elm, 1988, 518 s.

21. Yusif Məddah. Vərqa və Gülşah (XV əsr yazılı abidəsi. Mətn və qrammatik oçerk). Bakı: Elm, 1988, 184 s. (Z.Hacıyeva ilə birlikdə).

**1989**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

22. Hüseyn Əfəndi Qayıbov. Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir. II cild (Çapa hazırlayanı; Ş. Cəmşidovla birlikdə). Bakı: Elm, 1989, 254 s.

**1990**

23. Əlabbas Müznib. Müxtəsər ənbiya və islam tarixi (Çapa hazırlayanı: C.V.Qəhrəmanov). (Red. M.Adilov). Bakı: Gənclik, 1990, 59 s.

24. Lütfullah Əhməd. Həzrəti–Məhəmmədin həyatı (Türk dilindən çevirəni:C.V.Qəhrəmanov). “Karvan” toplusu. N 5, 1990, s. 3-86.

25. Письма М.Ф.Ахундова к разным лицам. Голоса из прошлого. VI выпуск. Баку: Элм, 1990, 222 с. (Соавтор Л.И.Алиева).

**1991**

26. Orta əsr Azərbaycan kitab mədəniyyəti (Mətnin müəllifi və tərtibçisi). Bakı: İşıq, 1991, 35 s.

27. Mustafa Zərir. Yusif və Züleyxa (Poemanın mətni və tarixi–qrammatik oçerk). Bakı: Elm, 1991, 307 s. (Ş.Xəlilovla birlikdə).

**1993**

28. المنتخب من مقتنيات معهد المخطوطا ت فى باكو باذربيجان
(با شراف و مقدمة جهانگير قهرمانوف). دبى، ۱۹۹۳- ۱٤۳ص.

**1996**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

29. Məhəmməd Füzuli. Biblioqrafiya. Bakı: Azərnəşr, 1996, 192 s. (A.C.Xəlilovla birlikdə).

**2002**

30. Hüseyn Əfəndi Qayıbov. Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir. III cild (Çapa hazırlayanı: C.V.Qəhrəmanov). Bakı: Mütərcim, 2002, 252 s. (Ş.Cəmşidovla birlikdə).

**2007**

31. Praktiki transfoneliterasiya işləri. Bakı: Nurlan, 2007, 320s.

## MƏQALƏLƏR

**1950**

32. Əlyazmaları kitabxanası (Azərbaycan EA Nizami ad. Ədəbiyyat İnstitutu yanında təşkil edilmiş əlyazmalar fondundan və orada mühafizə edilən abidələrdən bəhs olunur). Azərbaycan müəllimi 1950, 18 may.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## 1956

33. К вопросу об изучении философских терминов азербайджанского литературного языка. Ученые записки АГУ. 1956, N 7, с. 63 -76.

34. Краткий очерк истории терминологии в азербайджанском языке. Ученые записки АПИРЯиЛ им. М.Ф.Ахундова. 1956, вып. II, 211–228.

## 1957

35. Tərcümə prinsipləri (Cümşüd Əzimovun eyniadlı monoqrafiyası haqqında). Azərbaycan. 1957, N 2. s. 221–224.

## 1958

36. Из истории некоторых философских терминов азербайджанского литературного языка. Ученые записки АПИРЯиЛ им. М.Ф. Ахундова. 1958, Вып. VII, с. 235-245.

## 1960

37. Azərbaycan dilində iki əlyazması haqqında (Əsirəddin Əbhərinin“İsağoci”əsəri). Bakı, 1960, 25 noyabr.

38. Bir əlyazma lüğəti haqqında (Lütfullah ibn Yusif Həliminin “Bəhrül–qəraib” adlı farsca–türkcə lüğəti). Bakı, 1960, 21 dekabr.

## 1961

39. Dilçiliyin əsasları haqqında. Azərbaycan dili və ədəbiyyatının tədrisi. 1961, IV cild,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

s. 95-99.

40. Qiymətli sənəd. M. Qorkinin Bakıda nitqi. İlk dəfə nəşr olunur. Ədəbiyyat və incəsənət, 1961, 17 iyun (K. Talıbzadə ilə birlikdə).

41. Ценная находка литературоведов. Речь М. Горького в Баку. Публикуется впервые. Бакинский рабочий, 1961, 18 июня (Соавтор К. Талыбзаде).

42. Баку, 1928. Литературная газета, 20 июня 1961. (Соавтор К.Талыбзаде).

**1962**

43. Об одной старинной турецкой рукописи (О рукописи «Тарвих ал–арвах» по восточной медицине, поступившей в 1959 г. из Шуши). Доклады АН Азербайджана. Том XVIII. 1962, N 9, с.71–74.

44. О некоторых письменных памятниках Рукописного фонда АН Азербайджана, подлежащих публикации. Материалы Всесоюзного совещания по восточной текстологии. Москва, 1962.

**1963**

45. Описание архива М.Ф.Ахундова. (Рецензия) Известия АН Азербайджана. Серия общественных наук. 1963, N 1. с.101–104.

46. Yusif Vəzir Çəmənzəminlinin arxivində leksikoqrafik materiallar. Azərbaycan AE Xəbərləri. İctimai elmlər seriyası. 1963, N 4, c.113–114.

47. "Əsrarnamə"nin tərcüməsi və lüğət tərkibi. ADU-nun Elmi Əsərləri. Dil və ədəbiyyat seriyası. 1963, N 6, s.83–93.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

48. Lütfulla ibn Yusif Həliminin "Bəhrul–qəraib" əsəri haqqında. Azərbaycan EA Respublika Əlyazmalar Fondunun Əsərləri. II cild, 1963, s. 61–71.

49. Рукописи классиков иранской литературы, экспонируемые в Рукописном Фонде Азербайджана. Тезисы докладов Всесоюзной конференции востоковедов по иранской филологии. Баку, 1963, с. 41–42.

50. О составлении научно–критического текста произведений И. Насими. Доклады АН Азербайджана. 1963. Том XII.

51. Danışaq. Sovet kəndi, 1963, 14 sentyabr.

**1965**

52. Язык–богатство народа. Баку, 1965, 29 декабря.

**1966**

53. Mırzə Yusif Qarabağinin bir əlyazması haqqında («Məcmueyi–divani–Vaqif və müasirini-digər" adlı kitab haqqında). Azərbaycan. 1966, N 2, s.205-206.

**1967**

54. Nəsiminin əlyazma "Divan"ının orfoqrafiyası (RƏF-də saxlanan M–222 şifrəli əlyazmadan bəhs olunur). ADU-nun Elmi Əsərləri. Dil və ədəbiyyat seriyası. 1967, N 6, s. 83–92.

55. О словаре «Тухфат ал–абваб» (лексикографический памятник



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

средневековья о лексике персидского языка). Доклады АН Азербайджана. 1967. Том XXIII, N 6, с. 49–56

**1968**

56. Nəsiminin əlyazmaları. ADU–nun elmi Əsərləri. Dil və ədəbiyyat seriyası. 1968, N6, s. 49-56.

**1969**

57. Əhməd ibn Veysin azəricə qəzəli. Azərbaycan EA Məruzələri. 1969. XXV cild, N 4, s.95-98.

58. Əsərlərinin elmi nəşri (Nəsimi haqqında). Bakı, 1969, 4 aprel.

59. Научное издание произведений поэта (о Насими). Баку, 1969, 4 апреля.

60. Nəsiminin dili. Azərbaycan müəllimi, 1969, 18 aprel.

61. Археографические документы в хранении Рукописного фонда АН Азербайджана. Тезисы докладов конференции по вопросам археографии изучения древних рукописей. Тбилиси: Мецниереба, 1969, с.19.

**1970**

62. Nəsimi əsərlərinin nəşri tarixindən. Azərbaycan, 1970, N 12, s. 198–204.

63. Nəsimi əsərlərinin elmi–tənqidi mətninin tərtibi haqqında. Azərbaycan EA Məruzələri. 1970. XXVI cild, N 1, s.66–69.

**1971**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

64. İmadəddin Nəsimi əsərlərinin elmi–tənqidi mətninin tərtibi prinsipləri. Azərbaycan EA Məruzələri. 1971, N 3.

65. К вопросу об изучении лексических вариантов в рукописных списках произведений Насими. Сб. посвященный 60–летию акад. М. Ш. Ширалиева. Баку:Элм, 1971, с.312–317.

**1972**

66. Nəsimi leksikasının bəzi xüsusiyyətləri. Əlyazmalar xəzinəsində (Azərbaycan EA Respublika Əlyazmalar Fondunun əsərləri). III cild, 1972, s.39–45.

67. Hinduşah Naxçivaninin "Sihah əl-əcəm" lüğətindən fraqmentlər. Əlyazmalar xəzinəsində (Azərbaycan EA Respublika Əlyazmalar Fondunun əsərləri). III cild, 1972, s.121–140.

**1973**

68. Şəhərlərin, insanların dostluğu (Romaya səfəri və Vatikan kitabxanasında Azərbaycan yazılı abidələri barəsində; Bakı və Neapol şəhərlərinin qardaşlaşması sazişinin imzalanması haqqında). Ədəbiyyat və incəsənət, 1973, 10 fevral.

69. Rübailər, qəzəllər. İmadəddin Nəsiminin anadan olmasının 600 illiyi qarşısında. Ədəbiyyat və incəsənət, 1973, 17 mart.

70. Qeyri–mətbu qəzəllər. İmadəddin Nəsiminin anadan olmasnın 600 illiyi qarşısında. Kommunist, 1973, 9 avqust.

71. Böyük şairin irsi. Kommunist, 1973, 9 avqust.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

72. Qəzəllər, rübailər, müstəzad. İmadəddin Nəsiminin anadan olmasının 600 illiyi qarşısında. Ədəbiyyat və incəsənət, 1973, 21 iyul.

73. Nəsimi əsərlərinin tənqidi mətninin tərtibi haqqında. İmadədin Nəsimi (Məqalələr məcmuəsi). Bakı, 1973, s. 109–131.

74. О рукописях произведений Насими. Советская тюркология. 1973, N 5, s. 31–36.

75. Научно–критический текст произведений Насими. (Сб. статей). Баку: Элм, 1973, с.158– 183.

76. Nəsimi irsi dünya xəzinələrində. Sovet kəndi. 1973, 6 sentyabr.

77. Nəsiminin Türkiyə nüsxələri içərisində olan əlyazması haqqında. Ədəbiyyat və incəsənət, 1973, 17 avqust.

78. Əlyazmaların İstambul nüsxəsi (Nəsimi əlyazmaları). Bakı, 1973, 12 sentyabr.

79. Zəngin şeir dili (Nəsimi–600). Azərbaycan müəllimi, 1973, 12 sentyabr.

80. Dünyəvi sənətkar (Nəsimi–600). Yeni həyat, 1973, 13 sentyabr.

81. Böyük Azərbaycan şairi (Nəsimi–600). Şəki fəhləsi, 1973, 13 sentyabr.

82. Tənqidi mətnin tərtibi (Nəsimi–600). Ədəbiyyat və incəsənət, 1973, 13 sentyabr.

83. Он будил и звал (о Насими). Бакинский рабочий, 1973, 13 сентября.

84. İmadəddin Nəsimi (Nəsimi–600). Sovet Astarası, 1973, 13 sentyabr.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

85. “Məndə sığar iki cahan, mən bu cahana sığmazam”. Əmək, 1973, 13 sentyabr.

86. Qüdrətli sənətkar. Yeni Ordubad, 1973, 13 sentyabr.

87. İ. Nəsimi (Nəsimi–600). Qalibiyyət, 1973, 13 sentyabr.

88. Cahana sığmayan şair (Nəsimi–600). Avanqard, 1973, 13 sentyabr.

89. İmadəddin Nəsimi (Nəsimi–600). Mıngəçevir işıqları, 1973, 13 sentyabr.

90. İmadəddin Nəsimi (Nəsimi–600). Çağırış, 1973, 13 sentyabr.

91. Встреча в Риме (О рукописях Насими и бибилиотеке Ватикана). Вышка, 1973, 14 сентября.

92. Nəsimidən nümunələr. Ulduz. 1973, N 7, s. 56–57.

### 1974

93. Nəsimi əsərlərinin tənqidi mətninin tərtibi haqqında. ADU nun elmi Əsərləri. Dil və ədəbiyyat seriyası. 1974, N 3, s.59–60.

94. Əlyazmaların ekspozisiyası. Ədəbiyyat və incəsənət. 1974, 10 avqust.

95. Комментарий специалиста на статью спец. корр. Р.Семенова «Там, в горах, за перевалом…” (Мир приключений). Молодежь Азербайджана, 1974, 14 ноября.

### 1975

96. Научно–критический текст произведений Насими. Сб. рефератов ЦНИОН.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Баку, 1975.

97. Unudulmuş şairimiz Rəhməti haqqında bir neçə söz. Azərbaycan. 1975, N 10, s.184–190 (R. Əliyevlə birlikdə).

98. Взаимный интерес (об азербайджано-италянских культурных связях). Баку, 1975, 25 октября.

## 1976

99. Rəhməti Təbrizinin “Divan”ı. Əlyazmalar xəzinəsində. IV cild. 1976, s. 19–36 (R.Əliyevlə birlikdə).

100. Айан X. Стихи, приписываемые Кул Насими. Сб. рефератов ЦНИОН. Баку, 1976, с.22-29.

101. نسخ خطی دیوان عمادالدین نسیمی – پیام نوین – تهران
۱۹۷٦ – نمره۰۵

102. Kişvərinin bir əlyazma “Divan”ı. Əlyazmalar xəzinəsində. IV cild, 1976, s. 46- 52.

103. O рукописях, хранящихся в Республиканском Рукописном фонде Академии наук Азербайджана. Известия, 1976, 3 декабря; Советский Союз, 1972, N 3 /325, с.24.

## 1977

104. Коллекция тюркских рукописей Республиканского Рукописного фонда АН Азербайджана. Материалы Всесоюзного совещания «Принципы



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

научного описания археографических памятников народов Востока». Баку: Элм, 1977, с.32–35.

105. Тюркоязычные рукописи Республиканского рукописного фонда АН Азербайджана. Материалы научного совещания. Ереван: Матенадаран, 1977.

106. Сокровищница духовной культуры народов Востока. Известия АН Азербайджана. Серия литературы, языка и искусства. 1977, N 3, с. 12–17.

107. Əlyazmaları fonduna qiymətli töhfə (Nardaran sakinləri Əliyevlərin şəxsi kitabxanalarından alınmış XVI əsrə aid Füzuli “Divan”ından bəhs olunur). Kitablar aləmində. 1977, N 3, s.69.

108. Əlyazmaların tərcümeyi-halı. 11oktyabr 1977-ci il tarixdə keçirilmiş ar xeoqrafik müşavirədə C.V.Qəhrəmanovun giriş sözü. Kommunist, 1977, 13 oktyabr.

109. Находка рукопись «Дивана» Физули Баку, 1977, 21 октября.

**1978**

110. M.F.Axundovun yeni tapılmış iki məktubu haqqında. Azərbaycan EA Xəbərləri. 1978, N 3, s.37-38.

**1979**

111. Nizami “Xəmsə”sinin Nyu–York nüsxəsi (Morqan Muzeyində mühafizə olunan 957//1550-ci ilə aid nüsxədən bəhs olunur). Elm və həyat. 1979, N 4, s.2–3.

112. İmadəddin Nəsiminin dili. Varlıq (Tehran), 1979, N 8 (Əski əlifbada).

113. “Kəvamil-ət-təbir” və onun müəllifi haqqında. Əlyazmalar xəzinəsində. V cild,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

1979, s. 5–17. (R.Əliyevlə birlikdə).

114. Orta əsr Azərbaycan yazılı abidələrinin paleoqrafik tədqiqi haqqında. Azərbaycan mətnşünaslığı məsələləri. Bakı: Elm, 1979, s.36-45 (A. Qasımovla birlikdə).

115. Azərbaycan KP Mərkəzi Komitəsində (Böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsinin və təbliğinin yaxşılaşdırılması haqqında Qərar barəsində). Kommunist, 1979, 21yanvar.

116. В ЦК Компартии Азербайджана (о Постановлении по улучшению изучения, издания и популяризации литературного наследия великого азербайджанского поэта и мыслителя Низами Гянджеви). Бакинский рабочий, 1979, 21января.

**1980**

117. “Xəmsə”nin Bakı nüsxələri. Ədəbiyyat və incəsənət, 1980, 15 fevral (Möhsün Nağıyevlə birlikdə).

118. Z.M.Bünyadov görkəmli mətnşünas alim və tarixçi – alimdir (Akad. Z.M.Bünyadovun “Azərbaycan Atabəylər dövləti (1136 – 1225)” kitabının Azərbaycan Dövlət mükafatına təqdim edilməsi haqqında). Kommunist, 1980,10 aprel.

119. Dədə Qorqud dastanları. Məktəb kitabxanası üçün Rəy Ədəbiyyat və incəsənət, 1980, 5 dekabr.

120. Əlyazmalar xəzinəsi (RƏF-də mühafizə olunan abidələrdən və RƏF əməkdaşlarından qısaca bəhs olunur) Kitablar aləmində. 1980, N 2, s.45–46.

121. Через века и страны (О находке рукописного списка «Хамсе»



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Низами Гянджеви в США). Молодежь Азербайджана, 1981, 15 октября.

122. Ученый и воин (Герою Советского Союза, академику З.М.Буниядову 60). Бакинский рабочий, 1981, 29 декабря.

123. Kişvəri "Divan"ından nümunələr. "Keçmişimizdən gələn səslər" bülleteni. I buraxılmış. Bakı: Elm, 1981; 1983, s. 45-66.

**1982**

124. Qazi Burhanəddin Əhməd. Rubai və tuyuqları. Keçmişimizdən gələn səslər. II buraxılış. Bakı, 1982, s.143–162.

125. Духовное наследие народа–наше общее достояние. Сб. «Расцвет азербайджанской науки–торжество ленинской национальной политики». Баку: Элм, 1982,с. 308–327.

126. Dünya şöhrətli alim (Nəsirəddin Tusinin əlyazmaları). Ədəbiyyat və incəsənət, 1982, 5 fevral (M.Z.Hacıyevlə birlikdə).

127. Valeh Dağıstani və onun "Riyazüş-şüəra" əsəri. Ədəbiyyat və incəsənət, 1982, 17sentyabr.

128. Nemətullah Kişvəri (XV əsrdə yaşamış Azərbaycan şairi). Kitablar aləmində. 1982, N 4, s.29–30.

129. Müdriklik xəzinəsinin nadir inciləri. Nizami və müasirlik. Bakı, 1982, s.51–58 (M.Z.Nağıyevlə birlikdə).

130. Əlyazmalar Fondunda (RƏF-in yeni binaya köçməsi və onun quruluşu haqqında). Ədəbiyyat və incəsənət, 1982, 27 yanvar.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## 1983

131. Mənəvi sərvət xəzinəmiz zənginləşir. Ədəbiyyat və incəsənət, 1983, 25 fevral.

132. Qiymətli və nadir incilər (Azərb. EA RƏF haqqında). Bakı, 1983, 22 avqust.

133. Azərbaycan dilində sözlərin leksik–semantik inkişafı. Elm və həyat. 1983, N 10,s. 30–32 (Ə.Tahirzadə ilə birlikdə).

134. Nizami əsərlərinin əlyazmaları dünya kitabxana və muzeylərində. Ədəbiyyat və incəsənət, 1983, 23 sentyabr.

135. Республиканский рукописный фонд Академии наук Азербайджана. В сокровищнице рукописей Том VI, 1983, с.5–17.

136. Республиканский рукописный фонд. Задачи и перспективы развития. Коммунист Азербайджана. 1983, N 8, с. 82–87.

137. Respublika Əlyazmalar Fondu. Vəzifələr və inkişaf perspektivləri. Azərbaycan kommunisti. 1983, N 8, s.82–87.

## 1984

138. Qaynaqlar (Cəfər Cabbarlının “Dramanın əsasları” adlı məqaləsinin təqdimatı). Ədəbiyyat və incəsənət, 1984, 13 yanvar.

139. Mütəşəkkillik və şüurluq əmək intizamı. Ədəbiyyat və incəsənət, 1984, 30 mart.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

140. Azərbaycanda kitab miniatürü. Elm və həyat. 1984. N 1, s.18.

141. Sosialist demokratiyasının parlaq təzahürü. Ədəbiyyat və incəsənət, 1984, 12 oktyabr.

142. Əlyazmalar xəzinəmiz. Elm, 1984, 21 noyabr.

143. Tarixin səsi (XIII–XIV əsr Azərbaycan alimi Əhməd Çarpərdi Təbrizi və Əhməd Qoçdüvani haqqında). Kommunist, 1984, 18 oktyabr.

**1985**

144. Ömrün illəri (M.S.Sultanov–75). Ədəbiyyat və incəsənət, 1985, 11 yanvar.

145. Nikbin Valeh. Ədəbiyyat və incəsənət, 1985, 8 fevral.

146. Abdulla Qutqaşeni və onun RƏF–də mühafizə olunan müxəmməsi. Ədəbiyyat və incəsənət, 1985,19 aprel.

147. Parisdə Əlyazmalar sərgisi (YUNESKO binasında təşkil olunmuş RƏF–in əlyazmaları sərgisi haqqında). Ədəbiyyat və incəsənət, 1985, 14 iyun.

148. Əlyazmaları (Seyid Əzim–150). Ədəbiyyat və incəsənət, 1985, 12 iyul.

149. Azərbaycan əlyazma kitablarının bədii tərtibi. Ədəbiyyat və incəsənət, 1985, 9 avqust.

150. Azərbaycan kitab mədəniyyəti. Elm və həyat. 1985, N 7, s.22–24 (K.Allahyarovla birlikdə).



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

151. Sözlərin məna dəyişikliyi. Elm və həyat. 1985, N 10. s.30–32 (Fazil Əhmədovla birlikdə).

152. Dilçilik. Elm və həyat. 1985, N 9. s.23-24(H. Ağayeva ilə birlikdə).

153. Mətnşünaslıq. Elm və həyat. 1985, N 11, s.19–20 (K.Şərifovla birlikdə).

**1986**

154. Zərurətdən yaranan toplu. Azərbaycan kommunisti. 1986, N 1, s.108–111.

155. Xalqın mənəvi irsi bizim sərvətimizdir.Əlyazmalar xəzinəsində. VII cild, 1986, s.5–19.

156. Əlyazmalar xəzinəsindən incilər (M.M.Nəvvabın "Şahnamə"yə çəkdiyi miniatürlər haqqında). Elm, 1986, 30 noyabr.

157. Искусство книги в Центральной Азии в XIV–XVI вв. В сокровишнице рукописей. Том VII, 1986, с.132–140.

